Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

«525 КИТАБ» серийасы

Айсел Ялизадя

ДОЬУЛАЪАГ

ГАДЫН

шеирляр

Bakı – Mütərcim – 2010

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə

«525-ъи гязет»ин «525 Китаб» серийасы
«Дцнйа ядябиййаты» дярэисинин техники иштиракы иля

Серийанын рящбяри: **Ряшад Мяъид**,
«525-ъи гязет»ин баш редактору,
Азярбайъан Йазычылар Бирлийинин катиби

Серийанын тяртибчиси
вя редактору: **Сялим Бабуллаоьлу**
«Дцнйа ядябиййаты» дярэисинин
баш редактору

Няшрин редактору: **Ялиш Мирзаллы**

Дизайнер: **Мятанят Гараханлы**
Вяфа Ящмядова

Aysel Əlizadə. Doğulacaq qadın. *Şeirlər.*
/ «525 Китаб» серийасы. – Бакы: Мцтяръим, 2010. – 68 с.

© “525-ci qəzet”, 2010

Aysel Əlizadə

1980-ci ildə Bakı şəhərində anadan olub. 31 saylı orta məktəbi, Bakı Dövlət Universitetinin coğrafiya fakültəsini bitirib; bir müddət televiziyada çalışıb; publisistik məqalə və esseləri ilə mütəmadi olaraq dövri mətbuatda çıxışlar edir; Azərbaycan Yazıçılar Birliyinin üzvüdür; Prezident təqaüdçüsüdür (2009); "Ora" adlı ilk kitabı 2009-cu ildə nəşr olunub.

* * *

Ana, düşünmə ki, məni necə
həzin-həzin sevdiyini görmürəm,
necə səssizcə sevdiyini...
Sən otağına çəkilib
necə möhtəşəm sevə bilirsən...
O balaca otaqda necə gözəl susursan ...
Mən heç beləsini görməmişəm...
Ana, məni sənin qədər kimsə sevmədi.
Mən səni məni doğduğun üçün qınamıram,
mən səni niyə doğduğun üçün qınayıram.
Sən onsuz da müqəddəssən.
Yanında olmaqdan qorxuram.
Qəlbin elə təmkinlə,
elə kirmişcə ağrıyır ki,
utanıram.
Sənin içində bir cocuq yaşayır,
o cocuqdan utanıram.
O qədər məsumsan ki, inana bilmirəm,
öz inamsızlığımdan utanıram.
Ana, məni buralarda qoyub getmə,
mən səndən başqa yer tanımıram.

Doğulacaq qadın

Məndən sonra doğulacaq qadın,
ruhumu vəsiyyət edirəm sənə...
Gələn bütün kişiləri,
şeirlərimi,
bir də sevgimi vəsiyyət edirəm.
Sevilməyini istəyirəm...
Məni düsün bu seiri oxurkən,
bizi düsün...
Dünyanın ən xosbəxti ol,
ən bədbəxti də -
mənim kimi...
Hərdən
qəlbini rahat burax,
hərdən də günah işlət.
Səndən öncə bir şair qadın vardı -
bir az məsum, bir az günahkardı.
Bir adi qadın vardı,
bir dəlisov qadın-
bütün qadınlar o idi.
Coşqun yaşardı,
sakit yaşardı,
sevgiləri,
ayrılıqları vardı.
Ən gözəl kişiləri
ən pis qadınlara bağışlayardı.
Bir qadın vardı...
Bir tərəfi həmişə sevgi qoxuyardı,
bir tərəfi yalnızlıq olardı...
...Sənə kədərimi vəsiyyət edirəm.
Bilirəm,

kədər yaraşacaq sənə,
gözlərin havaya dikiləcək,
havanın rəngsizliyində
daha kədərli görünəcək.
Sənə sevincimi vəsiyyət edirəm.
Bilirəm,
sevinc yaraşacaq sənə,
gözəlləşəcəksən...
Sən gülüncə o xoşbəxt olacaq.
Sevincinlə kədərin dostlaşacaq.
Hər yerdə ikisi də
yanında olacaq.
Onlardan başqa kimsəyə güvənmə,
kimsəyə.
Unutma,
heç vaxt yerlər unutmayacaq səni,
unutsa yollar unudacaq...
Məndən sonra doğulacaq qadın,
yerimi sənə verirəm.
Qadın olmağı bacarsan
səni şeirlərim ağladacaq.
Ruhuma kövrələcən
sükutumu istəyəcən
səs-küyümü də...
Heyif, oturub üz-üzə
şərab içmədik sənlə,
dərdləşmədik.
Heyif, ondan danışmadıq.
Sevərsən.
Qorxmazsan, sevərsən onu,
bu bir həyat qanunu,
sadəcə sevərsən...
Çox görmə özünə bunu.

Bu acı deyil,
bir həyat düzənidir,
sevməsən pozarsan.
Öpürəm səni.
Qoru özünü,
özündən sonrakı
qadın üçün qoru!..

Yaşadığın adam

Barmaqlarının içi
çənənə sürtünür,
90 min sualı dondurur
baxışlarında.
Cavabın yoxdur
əslində,
yaşadığın adama
baş vurub
elə dayazda qalırsan,
o elə bu qədərdir.
Susması səssizliyi deyil,
sözsüzlüyüdür...
Dəhşətə gəlirsən...
Nə qədər cırıldatsan
birgə ömrünüzün
sınıq qapısını,
onu tapmazsan yanında.
Onun hər səfeh anında
dayazda qalır baxışların.
Üzünə daldıqca,
ağlamağa da halın olmur,

utanırsan ağlamağa.
Gözlərinin kökü
dərinləşir ona baxdıqca,
dərinləşir sən qocaldıqca.
Bu adam
bir qullab
sənlə dolmayıb.
Sinən qalxıb-endikcə,
beynində döyündükcə
ürəyin,
o heç eşitmir.

***

Həmid Herisçiyə

Sizə, Allahı göydə axtaranlara
səslənirəm,
Allah göydə deyil,
insanın yanında olmalı.
Zərdüşt...
O Zərdüşt ki, Günəşi tanrı sayırdı...
Günəş, o Günəş ki,
hər doğuşuyla
acımızı keçmişə yollayır,
hər doğuşuyla.
Günəşi tanrı saymaq nə gözəldir.
Gözəllik...
O Gözəllik ki, Cəfərin tanrısıydı...
Cəfərin tanrısına tapınmaq
nə yaxşıdır...

Bu ağılasığmaz kainatın
bapbalaca ölkəsinin
sərhədini açıb,
vətənimi genişləndirən
Asif atanı axtarıram mən.
“Buralarda tək qalarsan,
qəlbinə dəyən olar birdən” - deyib öldü.
O öləndən sonra
həqiqətdən qorxmağa başladım.
İradə xanım,
biz ölənlərlə ölmədik,
diri qalanları görüb öldük.
Qoy, bizi basdıranlar
başımıza yığışıb qara qarğalar kimi
üstümüzdə molla oxutmasınlar.
Biz molla səsindən öldük.
Axundovun, Cəlilin ruhuna and olsun ki,
insanı Allah öldürmür.
Özüylə uzaqları gətirən,
hər gün uzaqdan gələn
dostum gözümə dəymir çoxdandır.
İndi hansı uzaqlardadı,
indi gəlsə hardan gələrdi görəsən?
Biz uzaqlığa baxa-baxa öldük.

***

Sən, göydən gələn qonaq,
yanımızda qələmdən başqa
heç nə görməzsən.
Sevgilimiz heç vaxt yerində olmaz,

sən heç bunu bilməzsən.
Beynimizin bir yeri sevgiyə,
bir yeri nifrətə bağlıdır.
Pianomuzu günlərcə çalan olmadı.
O da bizim tək əbədi tənhadır.
Biz öləcəyik, göydən gələn qonaq,
bizi piano yaşadacaq.
Onu sənə tapşırıram ölməzdən əvvəl.
Biz öləcəyik,
üstümüzdən yağlı aş yeyəcəklər,
pianomuzda başqaları çalacaq.
Nə acı olacaq...
Ölülərlə dostluq edirik,
həmişə rahatsızıq.
Ölülər həmişə konumuzdu.
Narahat yaşamaq
dünyaya münasibətimizdir.
Dünya, üzünü yana çevir!
Yara basmış üzünə
baxa bilmirik artıq.
Göydən gələn qonaq,
sən yuxuma gəldin.
Gördüm üzbəüz durmusan,
başın buludlardadır,
İsaya oxşayırsan.
Qoluma “yoxdur” sözü
yazıldı bir zaman,
fikir verməyib sildim,
hər şey yoxa çıxdı o vaxtdan.
Alın yazım qoluma yazıldı.
O vaxtdan masamın üstündə qələm var,
o vaxtdan yazıram,

bacardığımı qoruyuram,
bacarmadığım əldən gedir.
Göydən gələn qonaq,
baxışlar bizi sənə ötürür.
Sən İsasansa
mənə 40-cı qapının açarını ver.

***

Nənəmdən sonra yazıldı

Ömrün ölüm qabağıydı,
hər gün dünyayçün darıxardın,
qorxardın tez ölməkdən.
Ya da ölməməkdən qorxardın.
Dindarların içində kafir,
kafirlərin içində dindar olardın.
Dünyanı qoyub getmək istəməzdin heç.
Və bir gün göy üzündə quş kimi
qanad açıb uçacağına inanardın.
Doymazdın üfüqə baxmaqdan.
Yerlə göyün birləşdiyi yerçün
burnunun ucu göynərdi.
Hər dəfə yığışıb gedərdin
...yenə qayıdardın...
Heç yerin ağrımazdı.
Və birdən
sol yanın sızlardı...
Heç kəsdən inciməzdin,
birdən hamıya acığın tutardı.
Heç dua etməzdin Allaha,
söhbətin tutmazdı onunla,

axırda dalaşardız,
ancaq hər görüşdə qucaqlaşıb,
ağlaşardız.
Sən əlini onun çiyninə qoyub deyərdin:
- Daha Allah olma.
O da rahatlanardı...
Yan-yana oturub birgə izlərdiz üfüqü,
hərə öz tanrısını düşünərdi...
İkiniz də günəşə tərəf baxardız.
yığışıb gedərdiz göylə yer qovşağına,
hər dəfə sən tək qayıdardın...
Göyə qaldırardı saçlarını Bakı küləyi.
Saçların küləyə öyrəncəliydi.
Göyə dikələn saçlarını
yerə daramağı sevməzdin.
Daraqlayardın barmaqlarını,
və təbiəti pusardın.
Göyü , üfüqü, günəşi pusardın.
Ay çıxanda ürəyin sıxılardı,
durub çarpayına sığınardın.
Pəncərədən təsadüfən
uçub gələn sərçə kimi
gecələr otaqda çırpınardın,
havanı içinə çəkib
... azadlıq... deyərdin...
Beləcə hava içinə dolub özgürləşərdi...
İnsanları qucağına doldurardın,
Bir adamı iki dəfə sevməzdin
birdəfəlik sevərdin.
Heç vaxt heç kimi tərk etməzdin
tərk ediləni özünə götürərdin.

***

Bilirsən necə boşalıb dünya?
çoxluğunu azaltdın dünyanın.
Sən təkliyin nə olduğun
gedəndən sonra
bizə öyrətdin...
Sən bizi artırıb getdin ki,
tək qalmayaq.
Bilirsən,
biz hamımız tək qaldıq.
Sən təklərin sayını artırdın.
Ayaqların hey üşüyərdi,
mən onda anlamazdım,
elə deyərdim ki, "axı, indi yaydır",
onda bilməzdim,
bilməzdim ki,
bütün fəsillər soyuqdur.
...İndi bilirəm...
Yenə yanımda olsaydın
Sənə deyərdim:
- Nənə, ayaqlarım üşüyür.

* * *

Atamdan sonra yazıldı

Ata, çox tez öldün...
Yenicə sevmişdim səni...
Yenicə dost idik...
Mən unutmadım üzünü,
sənə mühüm söz deyəcəkdim,
sözüm vardı...

Hər gün “bu gün yox”,
hər dəfə “gələn dəfə” deyirdim.
Saxlayırdım sonraya...
Saxlayırdım sabaha.
Ata, məni özünə oxşadardın,
oxşatma.
Yalqız olmaq istəmirəm,
o qədər də inanmıram Allaha...
And olsun ruhuna,
heç bir gün
səninçün
yasin oxutmayacam,
Heç zaman molla çağırmayacam.
Amma mən səni qəlbimdə oxşayacam...
və sən orda yaşayacaqsan...
Darıxanda,
dostlarımı yığıb anacam,
Yadıma salacam gülüşünü,
yoxluğuna gizlicə ağrıyacam...
Səni sevdiyimi özüm biləcəm...
Sən tez öldün,
gələn aya, o birinə,
gələn ilə qalaydın kaş.
Sevəydim mən də yavaş-yavaş...
Kədərim artdı,
boyum qısaldı bir az...
Sükutum böyüdü, ata.
Sən tez öldün.
Bilmirəm, adı nədirsə,
nəyimisə özünlə apardın.
Hər şey gec oldu...
Ancaq sən tez öldün, çox tez...

Sənə sözüm vardı...
Hər gün “bu gün yox”,
hər dəfə “gələn dəfə” deyirdim.
Ölməsəydin,
səni sevdiyimi
söyləyəcəkdim...
Sən tez ölmədin əslində,
əslində mən gecikdim...

* * *

İzelimin şeiri

Kəpənəyə döndüm sən doğulandan sonra.
Havada yeriməyi öyrəndim.
Daha yuxunu yox,
sənilə
yuxusuz gecələrimi sevdim.
Mən ölənədək keşiyini çəkərəm,
ancaq sən də
yaşamağı öyrən.
Hər qığıltından xoşbəxtəm,
nə qədər asanmış xoşbəxtlik,
necə yaxınmış...
Yavrum,
gözlər əslində necə təmizmiş...
Ömrü boyu kimsədə görməsən,
üzülmə,
təmizliyini itirmə.
qoru gözlərini, lütfən, itirmə.

Səni görəndən sonra
qorxuram başqa gözlərdən,
başqa üzlərdən.
Elə şirinsən,
dada gəlir
gözümdən düşən dünya da.
Bundan sonra da
nə olacaqsa
sənin üçün olacaq.
Gözlərinçün yaşamağa dəyər!
Sənə qədər
hər şeyə keçmiş olsun.
Balaca yazıçım mənim,
bundan sonra
sən yazırsan məni!

* * *

Bədurəyə yazılıb

Gecənin sakitliyidir sıxan,
bomboz bir sakitlik...
Mənasız...
Düşündüyündən ağırdır gözləmək,
sən nə gözlədiyini bilmədin.
Daldığından, darıxdığından deyil,
zamanın qaranlığındandır qorxun,
gec qaldığındandır hamının...
Bir sonsuz bürküdür həyat.
Heç nə deməkdir.
Heçliyi dinlər qulağın
ancaq bu vaxt.

Quru dinməzlikdir gecənin içi...
İfadə etmir heç nəyi -
heçliyin səsidir,
ya səssizliyidir -
yararsız...
Getməyi də gəlmir adamın,
qalmağı da...
Heç nəyi gəlmir,
heç kimi gəlmir adamın...
Heç nədir belə...
Amansız...
Harda gözləyir ki, adamlar?
Hardadır axı onlar?
Hamı hardadır belə?!
Çox əzizmidir həyat?
Gecəyə qurbandır yarısı.
...və yat... deməkdən başqa
Heç söz də tapmadı şairin...

***

Aqşinə yazılıb

Elə hey unudulan qadına
yazacaqsan,
elə hey yarımçıq olacaqsan,
tək qalacaqsan
və adama yox, zamana
danışacaqsan
bunları...
Torpağın altındakı
qədərdir

yorğanın altında yerin.
Bir adamlıqdır ömrün.
Bu üzdən çürüdün...
Çağıracaqsan kimisə,
uzaqdan bir səs susacaq.
Bir adam,
bir qadın
gəlməyəcək,
dinməyəcək...
Yağışdan sonra burda
göy qurşağı olmur.
Bu səmada
bir rəng olur.
“Get ” sözünün bir rəngi var.
Rəngsizliyindəndir göyün
bunlar...
Günəş qurtarır gecənin əlindən
adamı.
Bir kişilik ömrü var qadının.
Bir uşaqlıq ömrü var kişinin.
Qadın kişidən
kişi uşaqdan qorxur, şairim.
Heç qovuşmaz onlar....

***

Aysel Əlizadənin Alikə yazdığı şeir

Kasıb vaxtımda gəldin, şairim,
adamlar hamısı xərcləndi.
Heç qalıq da qalmadı birindən.
Ən kökündən də heç nə qalmadı.

- Adamlar ölməyə başladı...
sevgi nədir ki?
...
- Sakitliksən... Qadınsan... Susma...
...
- Qadın nədir?
Kişi olmayan şairlər.
Şair olmayan kişilər.
Hamısı qadından danışır.
Kişinin yeri qadındır.
Sənin yerindir.
- Təkliyəm...
Sənə yaraşan qadın tanımıram.
Terezanı sil yaddaşından,
atası ölən gənc kişidən
qorxmaz qadın.
Qadın qorxmaz kişidən.
- Səni aradım...
Səsin aldı məni bu zalım otaqdan.
İlk dəfə darıxmadım,
darıxmadı qulağım,
sənə yaxşı qadın tanımadım...
- Danış,
şairim, arıq bədənli, böyük şairim.
Nə söz bilirsənsə yaxşıdır.
Kişinin yeri qadındır.
- getmə...
Qoy gedim...

***

Yetişmədik insanlar olan yerə.
Biz özümüzü yetirəndə
geriyə dönməmək şərtiylə
getmişdilər.
Bir gün qapımızı açıb
onu evimizə çağıra bilmədik.
Onu tanıya bilmədik,
torpağının üstündə
çarpayımız kimi
azad və rahat uzanmadıq.
bizi onun olmağa qoymadılar.
ancaq biz həp onun olduq.
Bizdən sonra kimə qalacaq deyə
rahatsız olduq illərcə,
kimin əlində ovulacaq deyə
üzüldük düşündükcə.
Üzüqoylu uzanıb ona sıxılmaq,
ona sığınmaq,
göz yaşımızı bayrağına silmək,
ona isinmək,
ona sarılıb yatmaq gecələr...
Ancaq
yerimizi göydə saldılar.
Biz yarasa kimi asıldıq,
qaldıq başımız ona sarı ...
O bizim vətənimiz idi.

* * *

İradə üçün

Yağış yağır...
Yalnız buraxmır bu gün də.
Yalnız günlərdə
yolları isladır.
Quru yollara baxmayasan,
səninçün yağır.
Onun varlığı qədər ağır,
yoxluğu qədər ağır
gecədir,
hissdir -
içini dağıdır.
Onunki heç xəyanət deyil,
boş bir şeydir.
O qədər xəyanət deyil,
o qədər adidir,
incimirsən,
küsmürsən,
qısqanmırsan,
kobud söz də çıxmır ağzından,
kobud da düşünmürsən.
Yağış yağır,
o yağışa deyil
ona üzülürsən...
Sənin tək yorğun bir qadın
tanıdımı?
Tanımadı.
Heç tanımayacaq da.
Səni də heç vaxt tanımayacaq!

Kişi kimi xəyanət etsə
bir az qəzəb, bir az da kin
gələrdi
yorqunluğun üstə.
Getsə
sevinərdin də bəlkə.
Günahını götürüm üstümə,
daha nə olacaq ki, sənə;
özün get.
Dünya köməyin olsun.
Sən yalnız deyilsən,
hamımız yalnızıq.
Get, gecən xeyrə qalsın.

* * *

Gün üçün

Gün, kim anlar ki, bizi,
kim ağlar ki, bizimlə?
Kim sevər ki, bizi
bu uçuq qəlblə.
Biz kədərin qohumlarıyıq,
bu çal-çağır ölkəsində
kimə lazımıq?!
Gün, özünü yorğanına həsr elə.
Buz kimi qucaqlardan daha istidir.
Mənə gəldikdə,
“bir rəfiqəm vardı
yadına tez-tez dünya düşərdi” -
deyərsən.

* * *

Ürəksiz yaşanan ömrün
yenə buz kimi gecəsinin biri...
Yenə xəyanət dalğası dolanır ətrafımda.
Hiss edirəm,
yenə mənimkilərdən kimsə,
hardasa
ağzını ayırıb gülür kiminsə üzünə.
Buz kimi yalanlardan biri doğulur orda.
Orda gecə xəyanət yuvasıdır.
Yenə yalan şəklində
qarşıma çıxacaq xəyanət yoğrulur.
Buz kimi saniyələr
ara vermədən ötür burda,
gözümə dirənib,
mənsə özümə dirsəklənib yaşayıram.
Daha ayaqlarımın üstündə yerimirəm,
buz kimi xəyanətlərin üstündə yeriyirəm.

* * *

Əllərini unutmuş sevgilin
bir gün yenə oxşar hər yerini,
hər yeriylə qucaqlar səni.
Bədənin sığarkən ovuclarına
əllərin yenə yetim qalar.
Duyğuların yalnızca xumarlanar,
ovunmaz.
Barmaqları çizdikcə bədənində
qəribə həndəsi fiqurlar,

əllərin yenə yetim qalar.
Unudulduğunu gizləməkçün
əllərini gizlərsən...
Onları sevgilin unutduqca,
sən daha bərk xatırlarsan.
Çıxıb gedərkən
heç nə ifadə etməz bu görüş,
heç nə hopmaz əl yaddaşına.
Yol boyu tənha əllərinə baxıb
yenə tək olduğunu anlarsan.

* * *

Bu gecə sevdiklərim yadıma düşdü.
Bircə-bircə yaşadım hər günü.
Köhnə sevgilimlə görüşüb dərdləşdik
Xəbər aldım:
- Məndən sonra nə dəyişdi?
Nə qadınlar keçdi həyatından,
nə qadınlar yaşadın,
neçə xəyanət məni xatırlatdı,
Hansında mən vardım?
Nələr etdin,
kimlərlə sevişdin,
neçə qadın mən ola bilmədi,
neçəsi unutdurdu məni?
Köhnə sevgilimlə
sevgili günlərdən
daha səmimi idik
bu gecə.

Heç susmadıq,
yaddaşımızı yoxladıq.
Ömür sevgilərin
cəmidir bir az da,
sevgilər azaldıqca
ömür də qısalır.

* * *

Elə darıxıram, elə bil
daha sevilməyəcəm.
Heç bir dostum olmayacaq,
düşmənlərim nifrət etməyəcəklər mənə.
Yadına düşməyəcəm köhnə sevgilimin,
yazmağa mövzu tapmayacam,
yaşadığım şəhəri dolaşmayacam veyil-veyil.
Elə darıxıram, elə bil
daha darıxmayacam...
Acgözlüklə yaşayıram tənhalığı,
yenə gecələrin adamına çevrilib
gözümə təpirəm qaranlığı.
Elə darıxıram ki,
bəbəklərimin qaralığı
bu qaranlığa yaraşır,
gecənin darıxdıran yeri
mənə alışır...
Gecənin darıxan yeri mənəm.

* * *

Mən gərək küsdürməyim heç kəsi,
heç kəs də küsdürməsin məni.
Yaşamaqçün,
rahat olmaqçün dəyməyim
heç kəsin xətrinə,
heç kəs də dəyməsin mənə.
Dəyməyin mənə!
Sevməsəniz də olar.
Sevilməyincə sevməmək də olmur.
qarşılıqlı deyil heç nə,
qarışıqdı.
Sizinlə ortaq heç nəyim yoxdur -
torpaqdan, havadan başqa.
Sizinlə oxşar heç nəyim yoxdur -
doğulmaqdan, ölməkdən başqa.

* * *

Birdən
ömrün altını-üstünə çevirib,
bir bəhanə tapıb
darıxıram.
Bu dəfəki bəhanəm
sənsən.
Üstünü illərimin tozu
basıb,
silib qarşıma qoyuram.
Gözlərin yaşıl olub,
boyun ucalıb deyəsən,

hiss etməmişəm...
Nə tez evlisən?..
Qızına adımı qoymusan...
Axsayır zaman.
Elə bilirdim hardasa məni
dünyanın ən gözəl kişisi
gözləyir.
Demə dünyanın ən gözəl kişisi
üstünü toz basmış biridir.

Güzgüdəki adamın şeiri

Özünü gizləmək istəyirsən
özündən də gizlənməyin gəlir,
içindəki xarabalıq
insan əlinin zəhmətidir.
Canın çıxacaq qədər çabanın
məzmunu,
həyata var-gücünlə bağlanmağının sonu,
tükündən-dırnağına qədər sevməyindir.
qurduqca dağılan,
dağıldıqca daşınan
xoşbəxtliyindir.
Unudulanların ahı
yeni adamların köhnə günahıdır.
Anadangəlmə
yaşamağa hamilə qaldığın
və heç vaxt doğa bilməmək
dəhşətindir.
bədənindən ruhunu alıb
yerinə

xarabalıq dolduran.
həm də
susmaq məcburiyyətindir.

* * *

Nədənsə yatağına çəkiləndə
adam vicdanıyla qarşılaşır... ya da
...ya da
adam vicdanıyla yatağında qarşılaşır.
Vicdan yataqda gözləyir səni,
adam vicdanıyla girir yatağa.
Orda,
özündən başqa kimsə olmayan o yerdə,
ağlına gələn ilk insan kimdisə
o da vicdandır.

Uzaqdakı yaxına

Azad Mirzəcanzadəyə yazılıb

Yaxşı ki, getdin buralardan,
səni özlərinə bənzədərdi bunlar.
Bu qara adamlar,
hardan bilsinlər
qara-qura tarixin ardına
sənin adın yazılır.
Səni unutsa bu tarix
gərək bağlana.
“Getmə “deyə bilmədim sənə
“getmə” deyə bilmədim...

Biz burda,
qaranlıqda qara pişik kimiyik,
gözəgörünməzik.
Bura əbədi qaranlıqdır,
burdan işığa çox uzaqdır.
Getmək istəyəndə Səni düşünürük.
İşıq istəyəndə Səni düşünürük.
Yaxşı ki, Sənə hər yerdən yaxındır.

Gözbağlıca

Əlləri önə uzanmış,
gözübağlı yürüyən
bir toplum görürkən yuxularında,
dəli kimi oyanmasan,
üstünə qışqırmasan hamının,
şair deyilsən.
Yuxudan hamıyla birgə
hamı kimi oyansan,
yatsan yaxşıdır.
İlacsız yaşamaq nə ağırdır...
Yumruğunu sıxıb gözünü yumursan qəfildən
və başlayır yumulu gözlərin yuxusuz gecələri...
Vətəndaş duruşlu adamlar olan,
amaclar olmayan bir ölkədə
söylənib hər yerdə
özünə düşmən adı verdirərsən,
səndən öncə nə düşmənlər olub
bu yerlərdə...

Artan, azalan ümidlər
dolanar yan-yörəndə.
Sən kəpənək ovlar kimi
düşərsən dallarıyca
əlini atarsan, boş qaytararlar.
Sən atılıb-düşüb ümid tutarkən
onlar sənə gülər.
Hop burdayıq, hop ordayıq deyib
gözbağlıca oynayan kimi
oynadarlar səni ortalıqda.
Sən yorulanda
onlar uçub gedər.
Rastına gənc romantik çıxar.
“Heç vaxt gözbağlıca oynama” demək istərsən,
deyə bilməzsən...
O da gözübağlı
ümidin arxasınca gedər,
yürüş edən topluma yetişər,
qoşular əli önə uzanıq korlara.
Çığırarsan: qoşulma, qoşulma - deyə
ancaq boş yerə...
səndən öncə nə düşmənlər olub
bu yerlərdə...

* * *

Yalnızlığıma biri də gəldi.
Bir yalnızlıq da belə getdi...
Öz-özünə gəzən pişiyimdən
fərqli deyiləm.
O pişiklikdən tükənir,
mən adamlıqdan tükənirəm.
Eyni yerlərdə ayaq döymək;
eyni cür döyünən ürək -
nə ürək, nə yerlər dəyişəcək.
...2 ayaq kifayət etmir yeriməyə
2 əl, bir ağız da yetmir yeməyə.
2 göz də azlıq edir,
2 qulaq, bir dodaq da azdır
çox azdır .
Əskik gəlir bədən üzvlərim,
korluq çəkir bədənim.
pişik olsaydım
çəkilib bir küncə
darıxardım.
Darıxmaq yaxşıdır
heç nə olmayanda,
yaşamağa heç nə
qalmayanda
darıxmaq lazımdır.
Fikirlərim yol ölçür,
ağlım ağrıyır yol boyunca,
danışdıqca həvəsim ölür,
danışmadıqca özüm...
Darıxdıqca
ruhumda quruyan arzularımla

təkbətək qalıram...
Nə yaxşıdır təklik...
Gedim özümə qarışım...
mənimlə nə yaxşıdır,
nə yaxşıdır təklik.

* * *

Nəyəsə inanmaq,
sonra inandığının
olmadığını anlamaq
inamsızlıq yaratmır,
inamdan başqa
heç nə olmadığını öyrədir.
Heç nə yoxdur əslində.
Nə dünya, nə olanlar.
Meymunların nəslimi,
Yoxsa Adəm günahkar?
Kim iandırıb bizi
hər şeyin varlığına?
Kim inandırıb bizi
Incil, Tövrat, Qurana?
Hər şeyə inanmasaq
ıılmayacaqlar
olcaqlar kimi olmazdı,
Olanı olmayan kimi
anlamazdıq.
Bu qarışıqlıq yaranmazdı,
boşluğun antonimini bilərdik
Doluluqmudur əcaba?
Boşluq, doluluq, doluluq, boşluq...
nə hansı, nə nədir, baba?

Hansı çox, hansı azdır?
Bir onu bildim ki,
bu olaylı dünyada
bolluqdur.
Boşluqlardan boluq...

***

İlk sevgilim,
heç kəs qapıma
çiçək qoyub
gizlənmədi
səndən sonra.
Mən çiçəklərini
qapı arxasında
qoyub
Getdim
xoşbəxtlik arxasınca.
Sonra bildim qadın necə olar.
Artistcə çox ağladılar önümdə.
Mən gedəndə sən ağlamadın.
Çiçəklərini də götürüb
sakitcə qapını örtdün.
Daha qapımda çiçəklər olmadı...
Səni tərk edib
yeni sevgilimi tanıdım.
Həyat idi adı.
O sən olmadı.
Sənə bağışlanmaq üçün gəldim.
Məndən sonra sevmədin.
Bağışla, sənin olmadığım üçün,
günah işlədim.

* * *

Anara yazılıb

Bu səhər özümü
çox köhnə şəkillərdə axtardım.
Bu səhər öz arxamca günəşə baxdım,
girdim səhərin qoynuna.
Otağımnan
çox könhə bir şəkil tapdım.
Qayıtdı köhnəliklər mənə.
Dəydi gözümə
köhnə hədiyyələr.
Indi kimin sayılır onlar?..
Şəkillərdə, köhnə əşyalarda
axtardım özümü güzgüyə baxmadan.
Bu mən idim-
lap çoxdan...
Köhnə olan hər şeydə var idim.
Yarımcan, yaralı tapdım rəsmini
çox, çox qədim birinin.
Odamda can verən,
quyu baxışlı bir cavan
çıxdı qarşıma.
Mən xoşbəxtliyi illər sonra,
qəfildən,
keçmişim kimi yarımcan
və uşaqlığım kimi saf,
sabah dənizi kimi şəffaf,
mavi gözlərində gördüm onun.
İtirdiyim özümü onun gözündə,
necə gözəl,
necə diri,

necə canlı gördüm,
lap əvvəlki tək.
Yarmçıq qoyduğum nələri...
Özgəyə verdiyim gələcəyimi...
...
O, necə gözəl idi.
Özümü gördüm
sap sağlam,
ağrımayan,
dəcəl qızcığaz...
O qədər təzə qalmış üzünün
uşaqlığında
qocalığımı gördüm, lap yaxından.
Yanıldığım qədər yaşlandığımı anladım...
Dərinə gömdüyümü düşündüyüm özüm
onun gözündə lap, lap üzdə idi.
Çox keçmiş bir sevgi boylandı
şəkildən anicə,
necə qəribə
necə...
Çox uzaqdan görünən izləri
unuda bilmədim o gecə.
Sevdimmi onu nə vaxtsa?
Bilmədim...
Ancaq sabah dənizi tək şəffaf
gözlərinə baxdıqca
sevmək istədim...

***

Gözlərinin yadından
heç çıxmayacam.
Oxşarımı görəndə
sevinəcəksən.
Hər qadın ayağının takkıltısında
aldadacaq 6-cı hissin səni.
Yadına düşəcək ki,
mən geyməzdim beləsini.
Qapının ağzında durduqca
gözləməyi öyrənəcən.
Öz-özündə mənimlə danışacaqsan
ya masa arxasında, ya hardasa
məsələn: kitab oxuduğum yerdə
məni uyduracaqsan.
Bağrına basıb astadan:
"mən sənə qədər darıxa bilirəm"
demək istəyəcəksən.
Və yenə
elə ağlayacaqsan,
elə ki,
üstümdən illər keçəcək...

***

Ətrafımda hər şey sənə inanmamı istəyir.
Mənlə dola bilməyən çarpayım,
sükutdan xarab olan musiqi mərkəzim,
geyilməyən paltarlar,
bəzək əşyaları,

vərəqlənməkdən yorulan kitablar,
ağırlığımı saldığım ayaqqabılar,
yanımdan çəkilməyən soba,
yarımçıq yazı,
Sezen Aksu...
Tumarlanmaqdan bezən pişiyim
bəlkə hamıdan çox istəyir
inanmağımı.
İnandır məni.

* * *

İndidən deyirəm
Bir gün üz-üzə gəlsək heç nə soruşma.
Sənli mənzərəmin rəngini pozma.
Bəlkə əllərim əsər, tükənmiş görünərəm.
Bir az yorğun, bir az üzgün dəyərəm
gözünə.
Laqeyd də ola bilərəm.
Eyni hərəkəti təkrarlayaram.
Qocalığımı görsən,
soruşma “ necəsən? ”
Cavab axtarma illərin rahatsızlığına,
yalnızca bax mənə...
Doğmalığına şübhə etmə!
Heç nəyin dərininə getmə...
Nə olsa yenə
sevinəcəyəm sənə,
səni gördüyümə sevinəcəyəm,
əmin ol, indidən.
Səndən o yana heç nə yoxdur deməsəm,
bil ki, səndən o yana heç nə yoxdur.

Bir xoşbəxtlik olacaq
bəlkə də qismətim,
vəssalam.
O da sən deyil.
Sənsiz olacaq şeylərdən.
İndidən deyirəm,
suallar vermə.
Sən də, mən də
qaraltıdan çıxaraq
işıqda
sən məni,
mən səni tanısaq,
yalnızca bax mənə.
özünü xəbər al ...özünü...

***

Sən can yoldaşı izində
evində, ehtiraslar küllənir,
divarlardan inilti gəlir,
növbə-növbə
qadınların nəfəsi
sevmək istəyini çaşdırır,
istək ehtiras içində azır,
nəfslər külək kimi əsir.
Qapının hər döyülüşü
üz-üzə qalacağım
keçmişinə dönür,
ürəyimlə səsləşir.
qapın...
ürəyim...

qapın...
ürəyim...
darıxma,
döyüləcək sənin də ürəyin
ürəyin...
qapım...
ürəyin...
qa...

* * *

Yenə gələcəkdim
100 gün gözləyib bir gün,
100 dəfə düşünüb
birdən döyəcəkdim qapını.
100 yerdən baxıb
yad əl axtaracaqdım vərdişlərində,
tapmamaq ümidiylə
yenə tapacaqdım.
O qədər qısqanacaqdım ki,
sevməyənə qədər...
Sürüyəcəkdim arxamca arzularımı gedərkən,
yenə gözlərin darıxacaqdı qapıdan...
Hər gecə
ikinəfərlik yatağımda birnəfər olacaqdım
və düşünəcəkdim:
indi birnəfərlik yatağında ikinəfərsən yəqin...

* * *

Qaranlıqdı pəncərəmin o tayı,
bu tayınsa işığı sönmür.
Səni heç kim bu boyda gözləmir,
kimsə bu boyda gözləmir...
Sənsizlikdi pəncərəmdən o tayda.
Bu tay da sənsizlikdi.
Qışdı.
Susub üşüyürəm,
dodağımı sıxıb
pəncərəni tərlətmirəm daha.
Nə yalanlar gətirmişdin ovuclarında,
nə yalanlar...
Sən yalanı sevdinmi heç?
Sevindinmi yalana?
Ay kimi çıxardım yollarına,
Üzünə işıq salardım.
Hüzünlü şerimdə gizlənən
sən hissidirmi yoxsa?
Gizli səs sənsənmi hardansa?
Gələ bilmədin gəlişinlə...
Səninki gəlmək deyildi,
uzaqdan görünmək idi.
Şərəfimə bir çaxır içildi
və bitdi...
Bir çaxır şüşəsi tək boşaldı
ayın işıq saldığı yerlər.
Boş və işıqsız yerlər...
Bəs üzün harda qaldı?...
Sənsizlikdi pəncərəmin o tayı...
Bu tay da sənsizlikdi...

* * *

Alov idi gozlərimdəki,
od idi…odu sevirdim.
Səndən əvvəl
atəşpərəstdim.
Getdin…
Yanmaqdan qorxdun.
Soyuqsan, necə sevim?
Necə ağlayım səninçün?
Necə özləyim?
Soyuq nəyimə gərək,
qış var qarşıda.
Hələ nə qədər qış var…
Sən gözlərimi nəyə dəyişdin?
Nəyə?
Hansı gecəyə?
Şəhərin solgun sabahını
tək qarşılayıb,
yazıq gecəsini tək ötürürəm.
Gələnim, gedənim tək onlardır,
tək onlar.
Sən getdiyin anı xatırlamıram .
Getdinmi sən?
Gəlməmişdin bəlkə heç,
olmamışdın sevgilim.
Necə oldu bir anlıq,
birdən necəsə oldu,
Səni yanımda istədim.
Sonra üzümü çevirib unutdum.
Yalan deyirəm, unuda bilmədim.
Sən hamıdan gec gəldin,

hamıdan tez getdin.
Həmişə belədir:
ən çox sevilənlər
ən tez gedənlərdir.
Kimsə anlamaz ki, bunları,
kimsə anlamaz.
Yaman axşam oldu,
yaman qaranlıq düşdü.
Coşdu şəhər xəzrisi,
Gözümə toz doldurdu.
Yaman gecə düşdü
Yaman sənsiz oldum.
Külək doldu gözümə,
söndürdü gözümdə odu,
yenə gözlərim doldu
tozla… küləklə…
Küləyin altında duşünürəm,
baxsana halıma, səni gözləyirəm.
Gələnim, gedənimsə
bir solgun sabah, bir yazıq gecədir.
Kim deyərdi?
Kuləyə bürünüb gözləyəcəm,
donacam bir gün
qışdan öncə,
səni sevdiyimi anlayacam…

* * *

Sürətli zamanın sevgisidir bu,
sürətli adamın sevgisidir.
Məni bir günlük sevirsən,
bir günlük qısqanırsan,
bir günlük unudursan.
Mən elə darıxıram,
sən elə karıxırsan...
yoxsan...
varsan...
hardasan...
Səhv salma məni,
kimsəylə qarışdırma.
Unut o qadınları.
Bütün qadınları unut!
Geri gəl demirəm,
burdan getməmisən.
Bu dəfə
yolunu məndən sal,
bu da ünvanım, al,
gözləyəcəyəm...
Sevdiyin gün gəl,
unutduğun gün gedərsən...
Qısqanma,
hələ ki, sənindəm.
Bilirəm,
sən hamıdan
yaxşı sevirsən...

* * *

Səsin yenə qulağımı həbs edib.
Ayağı sürüşkən sevgilim,
bu dəfə yenə fikrin və özün
gedib uzaqlara,
yenə kimin dodaqlarına
qonub gəlmisiz?
Gözlərini ora-bura dikib
etiraflar edəndə,
kilsə xadimi hiss etdim özümü
yenə də.
Rahat ol,
daha sənin tək
mən də darıxmıram.
Ürəyincə gəz-dolan,
gəl hərdən,
şam yandır önümdə.
Bəlkə ayrılaq? – soruşaram,
uzun-uzadı danışarsan,
heç nə dinləmərəm.
Beləcə yaşayarıq,
eybi yox, öləndə ayrılarıq...

* * *

Mənə yasaq olan insan,
hardasan?
Ətim ürpənir
yoxluğuna inandıqca.
Kölgəlikdə dayandıqca
sənə yerikləyirəm.

Hisli-paslı
reallığın içində
gəlişini sayıqlayıram.
İstəmirəm nə ana,
nə qadın olmaq sənsiz.
Sənsiz adam da olmaq
yaramır işə.
Qaranlıqdan qorxmamaq
güclü olmaq deyil hələ.

Ağlağan qız

Gözündə yaş qalmayıbsa,
tükənmək üzrəsən.
Ağlaya bilmirsənsə,
artıq daha kədərlisən...
Cocuqluğunda çox ağlayardın.
Böyüdükcə daha çox ağladın...
Daha da ağladın...
Göz yaşını anandan çox gördün, tanıdın
Sevgilindən çox sevişdin gözlərinlə.
Gözlərin həyatdan kədərlidir.
Bəxtsizləri
və kimsəsizləri
gözlərinə doldurdun.
Hönkür-hönkür ağladın,
suya qarışıb ərisinlər,
boğulub ölsünlər deyə.
Heç biri azalmadı...

***

Birlikdə olmamızçün
çox ciddi səbəbləri unudub
ayrıldıq.
Sonrasa
çox kiçik bəhanələr
gəzdik görüşməyə...
Mənim yaddaş kartım səndə
qalıb,
sənin nəyinsə var məndə.
Dırnaq boyda yaddaş kartı
görüşdürür yekə-yekə
adamları.
Yaddaşımı götürüb
gedəndə də
demişdim, axı,
al, qayıtmağa
bəhanən olsun.

***

Əllərim havadan asılıb
ümidlərim kimi...
Sözlər boğazıma tıxanıb
yarımçıq qalır hər dəfə.
Əllərim boğulmayım deyə
şəkilçiləri əvəz edir...
Əllərim qədər anlasaydın məni
və əllərimi anlasaydın əgər...
Özünü asan əlimə
öz əlinlə

kəndir uzatmasaydın,
yoxsul bir gülüş qopub dodağından
üzümə çırpılmasaydı,
bütövcə getməzdim,
aparmazdım əllərimi.

* * *

Kiminsə ağılsız olduğunu söyləmək
bunu sübut etməkdən
asandır.
İkinci haqq sənindir.
Birinci tanrının.
Ancaq tanrı da ikinci haqqı sınayır.
Adam ağıllı olanda özünü,
ağılsız olanda özgəni qınayır.
Atın önünə ət,
itin önünə ot qoyulanda
gözünə haqq yox, aclıq görünür.

***

Tənhalıqda ölmək gözəldir,
Tənhalıqdan ölmək günah.

Öləndən sonra haqqımda
“yazırdı” deməsinlər,
hamının acığına yaşayırdı desinlər!

* * *

Göydən qar,
yerdən ağırlıq yağır...
Qayğılı baxışlar
adamın üstünə yıxılır,
ağızlar yem axtarır.
Bir fağır boxçasını yanına alır,
heç kimə gərəkməyən nəsə satır.
Varı-yoxu bu boxçadır.
Dünyanın küncündə xəyala dalır,
ona öz küncündən ovuc uzadır,
yuxulu-yuxulu dilənir həyat.
Bir ac, evsiz qadın gördüm.
Məni görcək təzə geyindi.
Başındakı ləçəyini
boxçadakı ləçəyiylə dəyişdi.
Bəzəndi qonağı gəlincə,
elə küçədəcə
gətirdiyim yeməklə şam etdik.
Heç nə danışmadıq.
Nə o dedi, nə mən soruşmadım.
Yeyib şükür elədi bu gününə.
Heyrətlə baxdım üzünə.
Nəyə şükür elədi?!
İstədim soruşum, dinmədim.
Üzümdə quruyan sualdan
Sualtək əyildi.
Ürəyində nə dedi,
nə gileyləndi?

Bilmədim.
Getdim...
Anladım ki, bütün qadınlar,
qocalanda
nənə olmurlar.

* * *

Nərminin ruhuna yazılıb

Nə vaxtsa
dostlarım vardı.
Dolu-dolu illərim vardı.
Gün-gün yox,
dost-dost itirdim illəri.
Əvvəlcə onlar dəyişdi,
mən dəyişmədim.
Sonra mən dəyişdim,
onlar yox.
Biri azadlığa təpinib,
insanın vətəni
rahat olduğu yerdi - deyib,
yollandı üzü qərbə.
o biri sübut edə
bilmədi ərinə
azad yaşamaq da olar,
yalnız
yaxşı mahnılar yazdığın üçün
boşanmaq da olar
və öldü...
Maraqlı idin, Nərmin.
Səni öldürən ərin

indi azadlıqdadır,
qızların böyüyür
balacası mahnı yazır,
son mahnısının adı
belədir:
“atalar anaları öldürür.”

* * *

Qapıda məni saxlayan qadın,
ramazanı bəhanə edib
pul aldın.
Son ümidlərindən biri
ramazan ayıdır.
Hər inancın
boş ümidindir.
Hər şeyin yaxşı olacağına
ümid edib,
inanırıq gör nələrə...
Mən cibimdən
sonuncu manatımı verib:
“yetirər bu yaxşılığıma görə”
düşündüm.
Özüm utandım tanrıya üz tutum.
Əvəzini ödəyər deyə,
borc verdim bəndəsinə,
rüşvət göndərdim.
Dedim:
- Dua elə, ay xala,
de ki, tanrı səni qorusun.
tərk edilməyəsən,

xəyanət görməyəsən,
səbr özü qapını döysün,
“mən gəldim”
desin.
Ay xala, sən də
mən yaşda olmusan
nə vaxtsa.
Söylə tanrıya,
məni sənin
bu günündən saxlasın.

* * *

Aybəniz xanıma yazılıb

İndi yerin bir tayında
Kiminləsə ayrılırsan
ağrıyırsan...
Kişilərdən biri üçün darıxırsan.
Yer fırlanır,
sən də elə öz yerində qocalırsan.
Çox mənasız,
çox anlamsız
bir sevgidən
gözəl bir mahnı doğulur,
gözəl bir şeir yazılır
indi Yerin o yanında...
Dahilərdə qəribəlik,
insanlarda laqeyidlik
davam edir...
Sən baxırsan.
Üst-üstə bu ayrılıqlar

sevgi olub nə zamansa.
İlkini də unutmusan,
indini də unudarsan.
Nə olsun ki, ağrıyibdır ayaqların
o yollarda bu çağacan.
Nə olsun ki, sevişmələr boş yerəymiş,
əsas odur ayrılırsan...
Bu da bir iş...
Yer fırlanır,
yol gedirsən kürə boyu.
Ürəyində dözüm doğub böyüdürsən
dünya kimi,
dünya boyda dözümdür bu.
Dünya, yoxsa ürəyinmi daha böyük?
Ürək kimi döyünürsən,
çırpınırsan yatağında.
Soruşuram
mən də yerin bu tayından:
qəlbinmidir dünya boyda...
Dünyamıdır qəlbin boyda?..
Acıdasan...boğulursan...
“Mən nə hayda, bu nə hayda...”
sükutunda...

* * *

Çiyin-çiyinə oturduğum bir qadın
bitib üzülürdü kafedə.
Arıq bədənindən ağırlıq
çökürdü kafeyə.
Nəfəsinin yükü
köçürdü üstümə.
Qadın balacalaşıb itdikcə
böyüyürdü kafe.
Ofisiant çay gətirdi.
Geriyə çevrildim,
önündə çoxlu boş fincan gördüm.
Çayı içib fincanı boşaltdı
yenisini istədi.
Ofisiant gətirdi.
Qaynar çayı başına çəkib
araq kimi içdi.
Ona baxdığımı görüb masama gəldi,
bir az içkili kimiydi
- Məndən istəyir özünü hamı,
məndə hamı hardandı? - dedi.
Üzünü kafeyə tutub zorla bağırdı:
- Eşidirsiz, məndə siz yoxsuz!
Sonra
səsini azaldıb pıçıldadı:
- Sevməsin heç bir kişi məni,
mən həmin kişinin deyiləm.
Yenə çay istədi,
soyuqdur, soyuq – dedi,
qaynar çayı araq kimi içdi.

* * *

Növbəti gözləmə otağı...
Növbəti ayrılığa hazırlıq...
Növbədə sən varsan - gedəcək...
Növbədə yeni yalnızlıq,
ən gözəl biçimdə,
ən gözəl ayrılıq.
Yaşımın dürüst vaxtı
demədən də olmur,
yaşımın susuz çağı
ağlamaq alınmır...
Ən gözəl yalanım,
danışdıqca sevimlisən,
biz unutmağa alışdıq,
sən
unutmamaq sevincisən...
Axsamlarımın içindən çıxdın,
bir gecə ayla sevişdim.
Bir sabah
günəş yerinə boylandın,
Həsrətlə baxmadım göy üzünə.
Bir sabah günəş yanımda oyandım,
Əlimi uzatdım, yanmadım,
isindim
və bildim
ancaq bu toxunuş unudulmaz,
ancaq sən...
Yolum uzaqdı inan,
dayandım, cavandım, ayıqdım,
yanında,
ağlım yanında, özüm yanında...

Bunu da yaşadıq sonunda,
özümüz bir yanda, ağlımız bir yanda
olmadıq...
Ağlımın içindən çıxdın bir axşam,
özünə bənzədin,
o sən idin, sən idin,
sol tərəfimdə...
Sənə yaraşdı bu, sevgilim...
İstəsən get, rahat get,
darıxsam,
tərtəmiz havanı
qoxlaram sabahlar,
ayı qucaqlayıb
yataram gecələr.
Hər səhər
günəşə cumaram,
ağacların şehini silərəm
tərinin yerinə,
sol yanımda
"yer boşdur?" soranlara
"yox" deyərəm,..
"gələn var" deyərəm...

* * *

Mövlud Süleymanlıya

Yerin boş qalmayıb,
kilidli qalıb.
Sözlər sənsiz darıxıb,
ağlaşır.

Gəl, gözünü sil sözlərin.
Yandıq yaxıldıq
sifətlərə baxmaqdan.
Gözünü döyən adamlardan
yorulduq.
Ritmini dəyişib ürək,
başqa cür döyünür nəsə.
Kimsə
əsəbimizdə oynayır.
Özləm,
özləmdir evimizdə.
Küçəmizdə
itlər ulayır,
yersiz yağışlar sulayır
hər yeri.
Tarixdir günahkar!
Günahkardır adamlar.
Bir qarış torpaq qalıb.
Başqa nəyimiz var?
Seyranla
danışdıq indicə,
kəndlicə,
“dahilər hallı- huş olur” dedi.
Güldüm, sevindim,
yəqin unutqanlıqdır
gedişin...
Sözləri yalnız qoyman
unutqanlıqdır, düşündüm.
İzinə düşdüm,
getdikcə getdim.
Üfüq görünmürdü,
göy yeri öpmürdü,

dünya kürə deyildi,
sonu bilinmirdi.
Bu iz deyildi,
bu söz idi... söz...
Sənə aparırdı,
səndən aparırdı
ayaqlarımız...
Nə yaxşı oldu,
çoxdandır
bir nöqtədə durduq,
bir nöqtəyə baxdıq,
bizi tərpətdin.
Əlimiz, ayağımız açıldı,
gəl, gözünü sil sözlərin...
Üstümüzə bir də onlar
göz yaşı, tökməsin..
Çoxdandır, lap çoxdan
danışmağımız ,
danışmağımız gəlir,
danışmağa adamımız
gəlmir.
Seyranla danışdıq indicə,
kəndlicə...
“Nə kənd qalıb, nə şəhər” - söylədi.
Səni özlədik...

* * *

Həqiqət sağ gözünü ağladar
yaşlandıqca.
Sağ gözün ağladıqca
yavaş-yavaş qocalarsan.
Yaş olduqca yaşlanarsan,
hər yaşınla
milyon-milyon göz yaşın
axıb içinə dolar,
dolub kədər olar.
Dopdolu bir kədərə dönərsən
yaşlanana qədər.
Yaşlı bir kədər olarsan.

* * *

Boşluğu doldurmaq üçün,
ağlamaq da olar, ağlamamaq da.
Ağrımaq olmaz.
Ağrımaq boşluğu doldurmaq
üçün deyil,
artırmaq üçündür.
Bədənin həyəcanı səbəbsizdirsə
və bu bədən kimsəsizdirsə,
kimsəsizlik həyəcanıdır boşluq.
Ən böyük xəyanət ən azı
küsdürmürsə,
evinə özündən başqası gəlmirsə,
boşluqdandır,
boşsan demək...

* * *

Hər kəs bir iz qoyur yaddaşında.
biri o ki var yorur,
o biri özünə yoluxdurur.
Unudulanlar da olur,
baş ağrısına çevrilənlər də.
Hər yerdə axtardığın da,
heç vaxt qarşılaşmadığın da.
Sözü dilindən düşməyən,
özü gözündən düşən,
həsrətinə ilişən,
hər gün yolun kəsişən,
sənlə qalıb başqasının olan,
sənin olub başqasıyla qalan
neçə insan yaşayır, insan.
İnsanlardan ibarət
kolleksiyaya bənzəyir
ömür.

Arzu

Tanrı sizə xərcləməyə
o qədər pul,
görməyə o qədər iş
versin ki,
bizim işimizə
qarışmayasız.
O qədər mövzunuz
olsun ki,
bizdən danışmayasız.

Getməyə yeriniz
bol olsun.
Bizə hərdən gələsiz.
Ərə verməyə,
evləndirməyə
çoxlu övladınız olsun.
bizə yetişməyəsiz.

* * *

Dostların əylənər sənlə,
görüşərlər,
hətta səni sevərlər bir az da,
ən sonda
gecə gələr,
hərəni öz evinə aparar.
Sən tənha baxışlarınla
yola salıb
hamını
gözləyərsən
ən axırda sənə gələn
dostunu...
Onun evi sən olarsan.

* * *

Yoxsulluq nə Allahı tanımaq,
nə dünyanı anlamaq,
nə onu dadmaq,
nə qanmaq,
nə qürurlu olmaq,
nə çalışmaq üçün deyil.

İnsanın dar günüdür yoxsulluq,
Hər şeyi, hamını tanıyan günüdür.
Eşitdiyi maşın səsinin,
gördüyü insan kölgəsinin,
beyninə dolub, içini boşaltmasıdır,
tənhalığının artmasıdır,
qar-qur, zır-zır sıxıntısıdır,
ola biləcəklərin "yoxdur"
nidasıdır!
"Yox" qanunudur yoxsulluq.
"Yox"dur, yox...

Mat-Rojayka...

İçində insan daşıdığını hiss etmək,
onu dünyaya gətirməkdən möhtəşəmdir.
Qəribədir... adam içində adam.
Ruslar "matryoşka"nı yaratdılar bundan.
Mat rojayka doğan anadır.
İçinə adam yerləşdirən qadın
Tanrıyla şərikdir.
Qadın tanrıya
adam yaratmaqda kömək edir.

* * *

Heyif ki, anlayacağın qədər
deyə bilmirəm
və heç o qədər
danışmaq da istəmirəm.

Beynini yorma,
yorulmaq qədər üzmür adamı
heç nə.
Sən “ölmə, elə itgin düş” lütfən,
mən susmaq istəyirəm ölənə qədər.
Ayrılıq deyil bu, qorxma,
sükutdur.

Ev

Dəmir bəndindir sənin
Evinin divarları.
Güvəndiyin yerindir
Qapısı, tavanları.

Təkliyi qoruyursan,
Adamlardan bezəndə.
Ev içinə dolursan
Öz için tükənəndə.

O tərk etmir, gözləyir
Ondan heç qovulmursan.
Dostun, sevgilin gedir
Sən ona qoşulursan.

Üşüyərkən uzaqda
Qaçıb ona gəlirsən.
Girib isti yataqda
“Gözəl evim” deyirsən.

Ayrılıqlar izləyir
Ona çatana kimi.
Ayrılıqdan gizləyir
Qapın açılan kimi.

* * *

Bu görüş ömründə nə dəyişəcək,
Bu hissin adına nə deyəcəyik.
Bu gəliş özüylə nə gətirəcək,
Bu sirri nə qədər gizlədəcəyik.

İzindən izimə iz salan sirrin
Dadından nə qədər dad alacağıq.
Bizim gizli-gizli sevişməmizin
Oduna nələri yandıracağıq.

Nə sənə gərəkdir, nə mənə, bu sirr,
Bu sirrin yükünü daşımaq olmur.
Sən hələ gəlməmiş izini itir,
İtir ki, başqa cür yaşamaq olmur.

Ayrılıq da deyil bizi ayıran,
Həsrət özü bizdən yan gəzir hələ.
Hələ yaranmayan, adı olmayan
Bu sirri yerində basdıraq elə.

Mündəricat

Ana, düşünmə ki, məni necə 5
Doğulacaq qadın 6
Yaşadığın adam 8
Sizə, Allahı göydə axtaranlara səslənirəm..... 9
Sən, göydən gələn qonaq 10
Ömrün ölüm qabağıydı 12
Bilirsən necə boşalıb dünya? 14
Ata, çox tez öldün... 14
İzelimin şeiri. 16
Bədurəyə yazılıb 17
Aqşinə yazılıb 18
Kasıb vaxtımda gəldin, şairim 19
Yetişmədik insanlar olan yerə. 21
İradə üçün.. 22
Gün, kim anlar ki, bizi 23
Ürəksiz yaşanan ömrün 24
Əllərini unutmuş sevgilin 24
Bu gecə sevdiklərim yadıma düşdü. 25
Elə darıxıram, elə bil 26
Mən gərək küsdürməyim heç kəsi 27
Birdən 27
Güzgüdəki adamın şeiri 28
Nədənsə yatağına çəkiləndə..... 29
Uzaqdakı yaxına 29
Gözbağlıca 30
Yalnızlığıma biri də gəldi. 32
Nəyəsə inanmaq..... 33
İlk sevgilim 34

Bu səhər özümü çox köhnə şəkillərdə axtardım 35
Gözlərinin yadından heç çıxmayacam..... 37
Ətrafımda hər şey sənə inanmamı istəyir. 37
İndidən deyirəm..... 38
Sən can yoldaşı izində 39
Yenə gələcəkdim 40
Qaranlıqdı pəncərəmin o tayı..... 41
Alov idi gozlərimdəki 42
Sürətli zamanın sevgisidir bu..... 44
Səsin yenə qulağımı həbs edib..... 45
Mənə yasaq olan insan..... 45
Ağlağan qız..... 46
Birlikdə olmamızçün 47
Əllərim havadan asılıb..... 47
Kiminsə ağılsız olduğunu söyləmək..... 48
Tənhalıqda ölmək gözəldir 48
Göydən qar, yerdən ağırlıq yağır... 48
Nərminin ruhuna yazılıb..... 50
Qapıda məni saxlayan qadın..... 51
İndi yerin bir tayında 52
Çiyin-çiyinə oturduğum bir qadın 54
Növbəti gözləmə otağı... 55
Yerin boş qalmayıb..... 56
Həqiqət sağ gözünü ağladar..... 59
Boşluğu doldurmaq üçün..... 59
Hər kəs bir iz qoyur yaddaşında. 60
Arzu 60
Dostların əylənər sənin lə, ... 61
Yoxsulluq nə Allahı tanımaq..... 61
Mat-Rojayka..... 62
Heyif ki, anlayacağın qədər 62
Ev 63
Bu görüş ömründə nə dəyişəcək..... 64

Çapa imzalanıb: 18.10.2010.
Format: 70x100 1/32. Qarnitur: Times.
Ofset kağızı: əla növ. Həcmi: 4.25 s.ç.v. Tiraj: 1000.
Sifariş № 99. Qiyməti müqavilə ilə.

“**Mütərcim” Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
Tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

“525 Kitab” seriyasından
2009-cu ildə əsərləri nəşr olunan müəlliflər:

Dünya ədəbiyyatından

İosif Brodski
Orxan Pamuk
Şota İataşvili

Azərbaycan ədəbiyyatından
Anar
Elçin
Ramiz Rövşən
Əjdər Ol
Ədalət Əsgəroğlu